Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Azərbaycan şirkəti BƏƏ-yə findıq ixrac edəcək

Image not readable or empty
/uploads/images/news/d21b351e34d1dad35718f37271240476_600x500-resize_crop-2399.jpg

"Gulfood 2018" Beynəlxalq Ərzaq Sərgisində ixraca dair müqavilə imzalanıb
Dubayın Beynəlxalq Ticarət Mərkəzində keçirilən "Gulfood 2018" Beynəlxalq Ərzaq Sərgisində "Made in Azerbaijan" vahid ölkə stendi ilə nümayiş olunan Azərbaycan məhsulları ziyarətçilər, potensial müştərilər tərəfindən maraqla qarşılanır.
Artıq "Gulfood 2018" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycanın "Azhazelnut" şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərindən olan şirkət arasında 40 ton fındıq ləpəsinin ixracına dair müqavilə imzalanıb.
Bundan başqa, Azərbaycanın süd və şirniyyat məhsullarının Səudiyyə Ərəbistanı, Tunis və Birləşmiş Ərəb Əmirliklərində distributorluğunun açılması məqsədilə xarici şirkətlərin təklifləri müzakirə olunur.